# Mübariz Həmidov:
# “Bu təkcə bizim deyil Azərbaycan teatrının uğurudur”



Nigar Pirimova
*teatrşünas*

**Müsahibimiz, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru, Azərbaycan Respublikasının əməkdar artisti, Kalmıkiya Respublikasının əməkdar incəsənət xadimi, ASSİTEJ-Azərbaycan Milli Mərkəzinin prezidenti Mübariz Həmidovdur.**

**- Mübariz müəllim, mövsüm başlayanı artıq neçənci festivaldan qayıdırsız?**

- Oktyabr ayında teatrımız 4-cü xarici səfərdə oldu, oktyabrın 5-9-u arası Rusiyanın Perm şəhərində keçirilən ikinci Martin Makdonax fesrivalında iştirak etdik. Bu, həmin festivalda artıq ikinci iştirakımız idi və bu dəfə tədbirə trilogiyaya daxil olan “Lineyn vilayətinin gözəllik kraliçası” tamaşası ilə qatılmışdıq. Tamaşalardan sonra müzakirələr olurdu və Serbiya, Rusiya, Polşa, Fransa və digər ölkələr Azərbaycan teatrı ilə tanış oldular, həm biz onların tamaşalarını izlədik, daha sonra maraqlı müştərək layihələr olarsa onların müzakirəsindən danışdıq. Biz Kalmıkyada olarkən Rusiyadan bir sıra teatr nümayəndələri təbrik üçün gəlmişdilər. Və mənim onların bir neçəsi ilə rəsmi və qeyri-rəsmi görüşlərim oldu. Bu gün Azərbaycana gəlmək istəyən teatr truppaları həddən artıq çoxdur. Həm gəlib Bakını görmək, burdakı teatrlarla tanış olmaq və oynamaq istəyirlər. Bəziləri ilə ümumu razılığa da gəldik. Yaqin ki, aprel-may aylarında bizə nisbətən yaxın olan Vladiqafqazda fəaliyyət göstərən Dövlət Gənc Tamaşaçılar Teatrı ilə qarşılıqlı qastrol səfərlərimiz olacaq, bu istiqamətdə işlər də görülür. Həmçinin Qroznıda, Rostovda fəaliyyət göstərən Gənc Tamaşaçılar Teatrları ilə əlaqələr qurulur, qastrol səfərləri planlaşdırılır. Bu gün teatrımızın baş rejissoru Bəhram Osmanov Kalmık Milli DramTeatrında yeni bir tamaşaya quruluş verir.



lərdən toplamış beynəlxalq müsiflər heyəti tamaşaları qiymətləndirdi. Əslində belə, müəllifin adına olan festivallar çox maraqlıdır. Belə festivallarda həmin müəllifin əsərlərindən ibarət tamaşalar oynanılır. Hətta elə olur ki, bir neçə ölkə eyni pyesə müraciət etmiş olur. Bizdə də elə oldu, həm iştirak etdiyimiz birinci festivalda “Yalqız Qərb”, həm də bu dəfə “Lineyn vilayətinin Gözəllik kraliçası” bir neçə ölkənin teatrı tərəfindən oynandı. Bu daha maraqlıdı, çünki eyni pyesə hər ölkənin necə yanaşdığının şahidi olursan. Rusiyadan sonra ikinci bizim teatrdı ki, onun üç əsərinə quruluş vermişik.

Oktyabrın sonu bizim qonaqlarımız Kalmık teatrı ilə müştərək tamaşamız oldu. Yəni layihəyə əsasən “Qohumlar” tamaşasında əsas rolları kalmık aktyorları, kütləvi səhnələrdə isə bizim teatrın aktyorları rol almışdı. Musiqini Kalmık bəstəkarı Arkadi Manciyev yazsa da, biz həmin musiqinin üzərinə öz milli alətlərimizlə Azərbaycan ladları əlavə etmişdik. Hətta bizim növbəti qastrolumuz zamanı, noyabrın 3-11 arası Kalmıkiyada həmin tamaşanı oynayanda bəstəkar musiqiyə etdiyimiz əlavələri çox bəyəndi və hətta icazə də aldı ki, onu özü üçün saxlasın. Kalmıkiya səfərimizə geniş mətbuat konfransı həsr etdiyimizdən bu barədə danışmağa ehtiyac görmürəm. Noyabr ayında daha iki festivalda iştirak etdik. Samuel Bekketin “Sözsüz” pyesi əsasında hazırlanmış eyni adlı monotamaşa əməkdar artist Şövqü Hüseynovun ifasında Vilnüsdə keçirilən növbəti Beynəlxalq Teatr Festivalında oynandı və böyük uğur qazandı. Sonuncu səfərimiz Kantrabas” tamaşası ilə yenə də Şövqü Hüseynovun çıxış etdiyi Moldovanın Kişinyov şəhərində keçirilən “MOLDFEST.RAMPA.RU” VIII Beynəlxalq Teatr Festival-laboratoriyası oldu. Festivalın ən yaxşı tamaşası nominasıyasını da məhz bizim teatr qazandı.

**- Bu festivallar ərzində yəqin ki, yeni tanışlıqlar, münasibətlər də qurmusunuz?**

- Təbii ki, bu festivallarda həm xarici ölkə-

**- Mübariz müəllim son zamanlar fikir vermişəm ki, “Lineyn trilogiyası”ndan daha çox “Yalqız qəlb” və “Gözəllik kraliçası”nı repertuara salırsınız. Bəs ikinci tamaşa “Kannemarada bir kəllə” nədən repertuarda demək olar görünmür?**

-Əslində düz fikir vermisiniz, əsas səbəb odur ki, biz çalışırıq tamaşaçıların zövqünə oxşayaq, onlara göstərdiyimiz tamaşalar maraqlı olsun. Düzünə qalsa bu gün demək olar ki, heç kəs Martin Makdonaxı tanımır, əsərləri ilə tanış deyillər. Onun əsərləri isə bir qədər ağırdır, orda baş verən hadisələrin ağırlığı bəzən seyrçini yorur. Lakin trilogiyanın bu iki tamaşası seyrçilər tərəfindən həm çox baxılır, həm də maraqla izlənilir.

**- İlin sonuna yaxınlaşırıq. Repertuarda hansı yeniliklər gözlənilir?**

- Bildiyiniz kimi, dekabrın 3-də Məhəmməd Füzulinin “Leyli və Məcnun” əsərinin Nicat Kazımovun quruluşunda eyni adlı tamaşasının premyerasını oynadıq. Bundan başqa daha iki yeni əsərin təhvil verilməsi nəzərdə tutulub, onların artıq vaxtları da bəllidir. Dekabrın 16-da kiçik yaşlı tamaşaçılarımızın görüşünə gələcəyik. Bu, Xanımana Əlibəylinin “Aycan” əsərinin tamaşası olacaq. Çox maraqlı tamaşadır, güllərdən, çiçəklərdən, onların xarakterindən danışılır. Bu tamaşa vaxtilə 1970-ci illərin əvvəllərində teatrımızın baş rejissoru olmuş Ulduz Əliyevanın quruluşunda yalnız aktrisaların ifasında oynanılmışdı. Həmin tamaşa mart ayına təsadüf etdiyindən Ulduz xanım aktrisaları bir yerə cəmləyərək, tamaşanı özlərinə 8 Mart təbriki kimi hazırlamışdı. Və ənənəvi olaraq məktəblilərin yeni il tətili üçün hazırlanan tamaşa. Bu, Teodor Syuz Qeyzelin “Yeni ili oğurlayan Qrinç” kitabının motivləri əsasında hazırlanan “Qrinç” (Yaşıl adam) tamaşasıdır. Məşqlər gedir. Çalışmışıq ki, personajlar uşaqların alışdığı, gördüyü qəhrəmanlar qədər təbii olsun.